# Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və

# Azərbaycan Milli Qeyri Hökumət Təşkilatları Forumu (MQF)

# arasında əməkdaşlıq razılaşması

**Ümumi məlumat.**

Azərbaycan Respublikası 1991-ci ildə keçmiş Sovet İttifaqından ayrılmaqla öz əbədi müstəqilliyini yenidən bərpa etmişdir. Müstəqilliyin ilk illərində müharibə şəraiti, ölkənin 20 % torpaqlarının işğalı, qaçqın və məcburi köçkünlərin sayının artması və onların normal şəraitdə yaşaması və s. kimi problemlərlə üzləşən Respublika bütün bunlara baxmayaraq demokratiya və bütün istiqamətlərdə inkişaf yolunu əsas prioritet kimi qəbul etmiş və bu sahədə fəal işlərə başlamışdır. Artıq 1990-cı illərin ortalarında Azərbaycanda vətəndaş cəmiyyətinin qurulmasına, insan hüquqları sahəsində aparılan işlər üzrə hökumət və qeyri-hökumət təşkilatlarının (QHT) birgə fəaliyyət göstərməsinə meyllər artmışdır. Bu kimi meyllərin artması sonda Azərbaycan Respublikasında güclü, şaxələnmiş, düzgün istiqamətdə fəaliyyət göstərən vətəndaş cəmiyyətinin qurulmasına gətirib çıxarmışdır.

21-ci əsrin ikinci on illiyində Azərbaycan Respublikasında müxtəlif istiqamətlərdə fəaliyyət göstərən 3000-dən artıq qeyri hökumət təşkilatı Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Həmin Qeyri Hökumət Təşkilatları artıq ayrı-ayrılıqda və forumlar, allianslar və s. çərçivəsində də fəaliyyətlərini həyata keçirirlər.

Azərbaycan Respublikasında bu gün fəaliyyət göstərən əksər qeyri hökumət təşkilatlarının yaradılması məhz ölkənin Sovet İttifaqı əsarətindən qurtulduqdan sonrakı perioduna təsadüf edir. Amma vətəndaş cəmiyyətinin ölkədə formalaşdırılmasında tarixi rol oynayan nadir təşkilatlar da vardır ki, hələ Azərbaycan Demokratik Cümhuriyyəti (1918-1920) dönəmində formalaşdırılmış və bu günədək də fəaliyyətini davam etdirməkdədir.

**AzQAC-nin statusu və missiyası:**

1920 –ci ildə yaradılan AzQAC Respublikada fəaliyyət göstərən və dövlət qanunu ilə rolu müəyyən olunmuş ən böyük humanitar təşkilatdır. Cəmiyyət dünyanın ən nəhəng humanitar qurumu olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ayrılmaz üzvüdür. Mövqeyinə görə Hərəkatın üç tərkib hissəsindən biridir. (Hərəkatın tərkib hissələri: Beynəlxalq Qızıl Xaç Komitəsi, Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri və Beynəlxalq Qızıl Xaç və Qızıl

Aypara Cəmiyyətlərinin Federasiyası). AzQAC öz imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət edir.

**MQF-nun statusu və missiyası:**

MQF 1999-cu il iyun ayının 11-də 95 QHT tərəfindən təsis edilmiş, hal-hazırda isə öz sıralarında 615 təşkilatı birləşdirən ictimai koalisiyadır. MQF-nin əsas məqsədi Milli QHT Hərəkatının genişlənməsi, üçüncü sektorun və vətəndaş cəmiyyətinin inkişafı, QHT-lərin fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübəyə, mövcud qanunvericiliyə uyğun qurulması və koordinasiya edilməsi, dövlət orqanları, bələdiyyələr, milli və beynəlxalq donorlar, həmçinin media və özəl sektorla QHT-lərin qarşılıqlı faydalı əməkdaşlığının təmin olunması və onların üzləşdiyi problemlərin birgə həllinə yardım etməkdir.

**Razılaşmanın şərtləri:**

Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Milli Qeyri Hökumət Təşkilatları Forumu bu razılaşmanı vətəndaş cəmiyyətinin inkişafı, humanitar sahədə birgə əməkdaşlıq və bir biri ilə əlaqələndirmə, kömək etmə məqsədilə bağlayırlar.

1. **Vəzifələr və öhdəliklər:**

***Azərbaycan Qızıl Aypara Cəmiyyəti***

AzQAC MQF-na daxil olan humanitar, ictimai profilli təşkilatlara (ictimai birliklərə və s.) humanitar sahələr üzrə özünün və ya Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının (Beynəlxalq Qızıl Xaç Komitəsi, Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Federasiyası) ekspertləri tərəfindən müvafiq təlimlərin, seminarların, bilik və bacarıqların artırılması üzrə məşğələlərin təşkil olunmasında köməklik edəcək;

AzQAC MQF-nun üzvü olan təşkilatlara (ictimai birliklərə və s.) fövqəladə hallara hazırlıq və cavabvermə sahəsində, fəlakətlərə dair qiymətləndirmə işlərinin həyata keçirilməsində, fəlakətlər zamanı risklərin azaldılması istiqamətində mütəxəssislərin hazırlanması işində əməli köməklik edəcək;

AzQAC Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının müvafiq humanitar sahələr üzrə yerli və beynəlxalq səviyyədə təşkil olunan simpoziumlarda, görüşlərdə, seminarlarda, təlimlərdə MQF-nun aidiyyatı nümayəndələrinin də iştirak edərək bilik və bacarıqlarının artırılması üçün dəstək verəcək;

Ölkədə ən böyük könüllü bazasına malik olan qurum kimi AzQAC MQF-na və foruma daxil olan yerli QHT-rə könüllülüyn inkişafı, könüllülük siyasətinin hazırlanması və həyata keçirilməsi, könüllülərin müvafiq təşkilatlarda fəaliyyətlərə cəlb olunması üzrə mütəxəssislər tərəfindən seminarlar, təlimlər vasitəsilə dəstək verəcək;

AzQAC bütün Respublika ərazisində mövcud olan infrastrukturu (Baş Qərargahı, Gənclər Komitəsi, Naxçıvan MR Komitəsi, Regional Mərkəzləri, Rayon Bölmələri və s.), əməkdaşları və könüllüləri səviyyəsində MQF-na üzv olan bütün, xüsusilə də humanitar profilli təşkilatlara öz Beynəlxalq mandatına və Fundamental Prinsiplərinə uyğun şəkildə dəstək veəcək, təşəbbüsləri qiymətləndirəcək və dəstəkləyəcək, əməkdaşlıq edəcək;

AzQAC Axtarış və Miqrasiya, Sağlamlıq və Qayğı, Silahlara Qarşı Mübarizə, Gənclər və Könüllülər, İcmaların İnkişafı, Fundreyzinq və Gəlirgətirmə sahəsində MQF-na və forumun üzvü olan təşkilatlara (ictimai birliklərə və s.) birgə əməkdaşlıq üçün şərait yaradacaq, birgə layihələrin hazırlanması və həyata keçirilməsi üçün addımlar atacaq, təşəbbüs olduğu halda sözü gedən sahələrdə öz ekspertləri tərəfindən müvafiq seminarlar, təlimlər təşkil edəcək;

AzQAC MQF tərəfindən həyata keçirilən bütün humanitar və s. tədbirlərdə fəal tərəfdaş qismində iştirak edəcək və dəstək verəcək;

Müraciət əsasında AzQAC Avropa Sertifikatlı İlk Yardım kurslarını MQF daxil olan təşkilatların (ictimai birliklərin və s.) əməkdaşlarına keçirəcək;

MQF və Foruma daxil olan təşkilatlar (ictimai birliklər və s.) tərəfindən olan təqdimatlar əsasında aztəminatlı insanlara imkanları çərçivəsində humanitar yardımlar edəcək.

***Milli QHT Forumu***

MQF AzQAC-ni ölkənin ən qocaman qeyri hökumət təşkilatı kimi qəbul edərək bu qurumu özünün əsas tərəfdaşlarından biri kimi görəcək və dəstəkləyəcək;

MQF Respublika ərazisində Könüllü Qan Donorluğunun inkişafında əsas aparıcı qurum olan AzQAC-nə bu proqramının geniş vüsət alaraq daha çox könüllü qan donorlarının formalaşmasında mühüm dəstək verəcək və təşkil olunan qanvermə aksiyalarında fəal iştirak edəcək;

MQF öz tərkibində birləşdirdiyi bütün qeyri hökumət təşkilatlarını daim AzQAC-nin humanitar missiyalı aksiyalarında, kampaniyalarında və tədbirlərində yaxından iştirak edərək dəstək verməsini təşkil edəcək;

İnsan əli və ya təbiət tərəfindən törədilən fəlakətlər zamanı AzQAC-nin ekspertləri tərəfindən həyata keçirilən humanitar yardım, axtarış və xilasetmə, miqrasiya tədbirləri, zərərçəkənlərə ilk yardımın göstərilməsi, qanla təmin və s. əməliyyatlara MQF və forumda birləşən təşkilatlar (ictimai birliklər və s.) yaxından dəstək olacaq, müvafiq təşkilati işlərdə fəallıq göstərəcəklər;

MQF humanitar sahədə həyata keçirdiyi layihələrə AzQAC ekspertlərini cəlb edəcək və daim bu sahədə məsləhətləşmələr aparacaq;

MQF hərbi münaqişə zamanı AzQAC-nin öz beynəlxalq mandatına uyğun şəkildə təşkil etdiyi humanitar yardım, axtarış və xilasetmə, miqrasiya tədbirləri, zərərçəkənlərə ilk yardımın göstərilməsi, qanla təminat və s. əməliyyatlarda bütün tərkibində olan təşkilatları (ictimai birlikləri) birgə çalışmağa səfərbər edəcək;

**Əlaqələndirmə mexanizmi**

Hər iki qurum razılaşmadan irəli gələn vəzifələr və öhdəliklərə dair həyata keçirilən müvafiq fəaliyyətlərin monitorinqi, planlaşdırılması, idarə olunması, qiymətləndirilməsi və hesabatının təşkil olunması üzrə məsul nümayəndələrindən ibarət işçi qrup təşkil edir və bu işçi qrup rübdə ən azı 1 dəfə görüşərək yuxarıda qeyd olunan bütün məsələlərlə əlaqədar işləri həyata keçirir.

**Hesabat mexanizmi**

Hər iki qurum tərəfindən ümumi fəaliyyətlərə nəzarət üçün təyin olunmuş işçi qrup həyata keçirilən birgə fəaliyyətlər üzrə hər iki qurumun icra və ali rəhbərliyinə müntəzəm surətdə hesabat verir;

Birgə həyata keçirilən fəaliyyətlər haqqında hər iki qurum ictimaiyyətə hesabat vermək məqsədilə öz rəsmi rabitə və informasiya vasitələrində (rəsmi internet səhifələri, qəzetlər, informasiya materialları, sosial şəbəkələrdə olan rəsmi səhifələri və s.) məqalələrlə çıxış edir;

Beynəlxalq və ya yerli donorlar hesabına hər iki qurumun birgə həyata keçirdiyi müvafiq layihələr üzrə yazılı və maliyyə hesabatları düzgün şəkildə tərtib olunaraq maliyyə verən qurumlara təqdim olunur.

**Razılaşmaya xitam verilməsi**

Razılaşma hər iki tərəfdən rəsmən imzalandığı gündən sonra qüvvəyə minir. Fəaliyyət dövründə müvafiq yeni birgə iş istiqamətləri və tələbləri ortaya çıxarsa razılaşmada dəyişikliklər edərək yenidən imzalana bilər;

Qurumlardan birinin fikrincə bu razılaşmanın şərtlərindən hansısa biri və ya bir neçəsi əməl olunmursa razılaşmaya xitam verilə bilər;

Bu razılaşmaya tərəflərdən birinin xitam vermək istəyi öncədən yazılı qaydada qarşı tərəfə bildiriş əsasında müraciətdən sonra mümkün ola bilər;

Bu razılaşma Azərbaycan dilində iki nüsxədən ibarətdir.

Razılaşmanın surətləri hüquqi qüvvəyə malik deyil.

Razılaşma 4 səhifədən ibarətdir.

TARİX: 06.09.13.

**AzQAC adından** | **MQF adından**

**Dr. Novruz Aslanov**
**Prezident**

**Cənab Rauf Zeyni**
**Prezident**

AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ
AZERBAIJAN RED CRESCENT SOCIETY

AZƏRBAYCAN RESPUBLİKASI QEYRİ-HÖKÜMƏT TƏŞKİLATLARININ FORUMU
THE FORUM OF NON-GOVERNMENTAL ORGANIZATIONS OF THE REPUBLIC OF AZERBAIJAN
NGO AZERBAIJAN